# “Sayat Nova erməni yox, azərbaycanlıdır”

## Məhərrəm Qasımlı: “Avtobus sürücüsündən tutmuş, tibb bacısına qədər Aşıqlar Birliyinin üzvləri olub”

**Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlının APA-ya müsahibəsi**



**- Məhərrəm müəllim, Aşıqlar Birliyində işləriniz necədir, hansı yeniliklər var?**

- Bir neçə ay əvvəl demişdim ki, yeni layihələrimiz olacaq. Bu müddət ərzində həmin layihələrdən bir çoxunu həyata keçirə bildik. Birinci növbədə Azərbaycan Aşıqlar Birliyi sıralarında yenilənmə apardı. Aşıqların attestasiyası və yenidən qeydiyyatı məsələsini gündəliyə gətirdik. Birlik 300-ə yaxın üzvdən ibarətdir. Deyim ki, əvvəlki tərkiblə müqayisədə 30-40 faiz təmizlənmə işi gedib. Onlar birlikdən çıxarılıb, yerinə xeyli sayda gənc və istedadlı aşıqlar qəbul olunub. Bu gün Aşıqlar Birliyinin sıralarında həm ustad aşıqlar, həm də yeni nəsil aşıqları yer alıb. Bu da bizə imkan verəcək ki, yeni ovqatla iş aparaq.

**- Üzvlükdən çıxarılanlar kimlər idi?**

- Əsasən, aşıq sənətiylə əlaqəsi olmayan adamlar. Onlar müxtəlif səbəblərdən birliyə üzv olublar. Avtobus sürücüsündən tutmuş, tibb bacısına qədər ən müxtəlif adamlar Aşıqlar Birliyinin üzvü olublar. Saza-sözə maraqları olduğu üçün birliyin üzvlüyünə qəbul ediliblər.

**- Heç olmasa, saz çalmağı bacarırdılar?**

- Belə də, az-çox. Amma onları Aşıqlar Birliyinin üzvü statusuna qaldırmaq olmaz. Özləri mənə deyirdilər ki, bu sənətə böyük məhəbbətimiz var, ona görə qalmaq istəyirik. Qəbul etmədim. Çünki bura professionallar ocağı, elmi-mədəni qurumdur. Ona görə də Aşıqlar Birliyinin sıralarında olan hər bir adam bu sənətə professional yanaşan olmalıdır. İstər aşıq olsun, istər tədqiqatçı. İndiki halda Aşıqlar Biliyinin nizamnaməsində qoyulan tələblər var ki, aşıqlar hansı ədəb-ərkan qaydalarına riayət etməlidirlər. Bu barədə nizamnaməyə əlavə olaraq əsasnamə hazırlamışıq.

**- Ədəb-ərkan qaydaları nədən ibarətdir?**

- Olur ki, efirdə, məclisdə saza yaraşmayan qeyri-etik hərəkətlər edirlər.

**- Məsələn, sazı başa qaldırmaq?**

- Bəli. Təkcə başa qaldırmaq yox, ayaqlarının arasından keçirmək, akrobatik hərəkətlər etmək, yersiz danışmaq və s. Bunlara yol verən adamlar bizim sıralarımızda yer ala bilməzlər. O tipli adamları görərsinizsə, bilin ki, onlar Aşıqlar Birliyinin üzvü deyillər. Mənə saytlar, müxtəlif qurumlar müraciət edir ki, filankəsin hərəkətinə necə baxırsınız? Mən də deyirəm, bu adamlar Aşıqlar Birliyinin üzvləri deyil.

**- Əvvəllər olublar?**

- Bəziləri olub, bəziləri də attestasiyadan keçməyiblər. Biz bundan sonrakı dönəmdə də aşıqlarımızın davranışına ciddi yanaşacağıq. Bizim ən gənc üzvümüzdən tutmuş, ən yaşlı üzvümüzə qədər hamı o prinsiplərə cavab verməlidir.

### "VƏSİQƏMİZİ İFASI PİS, ÖZÜNÜ APARA BİLMƏYƏN ADAMDA GÖRƏ BİLMƏZSİNİZ"

**- Aşıqlar Birliyinin üzvü olmaq aşığa nə verir ki, bu qədər maraqlıdırlar?**

- Bu, ilk növbədə mənəvi qürurdur. Bizim yeni vəsiqəmiz var, orda Azərbaycanın üç rəngli bayrağı, atributları yer alıb. Bu vəsiqəni cibində daşıyan adam isə Azərbaycan aşıq sənəti ilə bağlı özünün qürurunu nümayiş etdirməlidir. Mən hər zaman deyirəm ki, kim sizə bir söz desə, soruşun ki, səndə bu vəsiqədən varmı? Çünki mən Aşıqlar Birliyinin vəsiqəsini hər yoldan ötənə vermirəm. Birliyin vəsiqəsini ifası aşağı olan, özünü apara bilməyən adamda görə bilməzsiniz. İlk dəfə olaraq Laçından 30-dan çox aşığı üzv qəbul etmişik. Əvvəllər onların sayı 3-4 nəfər olub. Naxçıvandan 15 aşıq üzvlüyə qəbul olunub, əvvəllər bir, yaxud iki nəfər olardı. Zaqatala-Balakəndən ilk dəfə olaraq tamburçu aşıqları birliyə üzv götürmüşük, onlar tədbirlərimizdə çıxış edirlər. "Çeşmə" folklor qrupu, "Misri", "Buta", "Qobustan", "Laçın" sazçı qrupları yaradılıb. Bu ifaçılar professional təhsil alıblar. Ona görə də onların ifalarında ən müasir tərəflər də görünür. Məsələn, istənilən vaxt "Koroğlu" uvertürasını rahatlıqla çala bilirlər. Bunun üçün uzun zəhmət lazımdır. İlk dəfə olaraq birliyin katiblərini bölgələrə, hətta Borçalıya göndərdim ki, aşıqlarla görüş keçirsinlər, qayğılarını, problemlərini öyrənsinlər. Aşıqların problemləri müəyyənləşib və həlli istiqamətində iş aparırıq. Məsələn, yubileylərin, konsertlərin təşkilini təmin etmişik. Bu il bizim təqdimatımız əsasında ölkə prezidenti İlham Əliyev cənabları yeddi aşığa fəxri ad verdi. Yetmiş ildə belə bir fakt olmayıb ki, yeddi aşıq bir dəfəyə fəxri ad alsın. Bundan başqa, bizim beş aşığımıza "Mədəniyyət və Turizm Nazirliyinin fəxri işçisi" adı təqdim olunub. Bu, böyük dövlət qayğısıdır. Son 20-25 ildə ilk dəfə olaraq dövlət müstəqilliyi ilə bağlı Filarmoniyada bayram tədbiri keçirildi. Hörmətli nazirimiz Əbülfəs Qarayev tədbiri açıq elan elədi, aşıqlarımız Azərbaycanın iqtisadi-mənəvi sahədə qazandığı uğurları, ölkəmizin abadlığı, tarixi qüruru mövzusunda 20-dən çox mahnı oxudular. İlk dəfə olaraq həmin konsertdə 60-a yaxın aşıq iştirak elədi. Azərbaycan televiziyası həmin iki saat yarımlıq konserti böyük səxavətlə efirə verdi. Aşıqlar həmişə dövlətçiliyin təməli olublar. Dədə Qorqud zamanından tutmuş, sonrakı zamanlara qədər aşıqlar milli varlığımızın, dilimizin əsas keşikçiləri olublar. Bu gün müstəqil Azərbaycandan ən qürurla danışan sənət sahəsi aşıq sənətidir.

**- Adətən, deyirlər, 60-70-cı illərdə ədəbiyyatda, rəssamlıqda, musiqidə böyük sənət əsərləri yarandı və bu gün o böyük istedadlar yoxdur. Aşıq sənətində vəziyyət necədir?**

- Tam məsuliyyətlə deyirəm ki, çox istedadlı gənc aşıqlarımız var. 20-40 yaş arasında olan nəslin ifaları göstərir ki, Azərbaycan aşıqlığında keyfiyyət yeniləşməsi var. Azərbaycan tamaşaçısı muğam-caz sintezini görmüşdüsə, bu gün caz və Azərbaycan sazının sintezi istiqamətində işə başlamışıq. Düzdür, bunu hələ açıb-ağartmırıq. Bilirsiniz ki, Araz Ozaro "O səs Fransa"da caz sahəsində böyük uğur qazanıb. Bizim Elvin Mehmanlı ilə birlikdə qrup yaradıblar, saz havalarının caz versiyalarını hazırlamaqla məşğuldurlar. İnanıram ki, onlar böyük uğur qazanacaqlar.

### "İNANIRAM Kİ, MİLLİ KONSERVATORİYADA DA AŞIQ İXTİSASI AÇILACAQ"

İlin sonuna doğru konsert verməyi planlaşdırırlar. Hətta bizim "Sarı gəlin" "Laçın" mahnılarımız sintezlə təqdim olunacaq. Aşıq sənətində dəniz kimi çəkilmə baş verir, sonra yenə qabarma olur. Bir vaxtlar Aşıq Şakir, Əkbər Cəfərov, İmran Həsənov, Kamandar Əfəndiyev, Hüseyn Saraclı kimi böyük istedadlar var idi. Sonra dəniz geriyə çəkildi, bu istedadlar sönüb getdi, boşluq yarandı. Amma zaman gəldi ki, onların yeri doldu. Bu gün Əli Tapdıqoğlu, Nəbi Nağıyev, Altay Məmmədli, Qələndər Zeynalov Aşıq Şakirin yerini boş qoymurlar. Samirə Əliyevanın ifasını çox rahatlıqla dünya səhnələrinə çıxarmaq olar. Mən inanıram ki, bu il Mədəniyyət və İncəsənət Universitetində olduğu kimi, Milli Konservatoriyada da aşıq ixtisası açılacaq. Danışıqlar aparılıb, buna ehtiyac var.

**- Sualımı qəribə qarşılamayın: Azərbaycan aşığının dolanışığı necədir?**

- Aşıqların dolanışığı tarixən olduğu kimi, bu gün də el məclislərindən çıxır. El məclisində aşığın istedadı rol oynayır. Məsələn, Samirə Əliyeva, Əli Tapdıqoğlu kimi güclü ifaçılar yaxşı dolanırlar. Onlarla belə adam saymaq olar. Bir qisim ifaçılar isə ifaları ilə bağlı çörək qazanmaqda çətinlik çəkirlər. Burda müxtəlif faktorlar var. Məsələn, istedadın zəifliyi, məclisi ələ almaq qabiliyyətinin aşağı olması və s. Təsəvvür edin, Əli Tapıdoğlu Şirvan aşığı olsa da, Naxçıvana, Tovuza toya aparırlar. İstedadlı aşıq Ramin Qarayevi Rusiyaya məclisə aparırlar. Avdı Musayevin, Vüqar Mahmudoğlunun, Zülfiyyə İbadovanın boş vaxtı olmur, həmişə toylardadırlar. Təbii ki, burda bizim təbliğatın da rolu var. Özüm televiziya verilişlərinə istedadlı aşıqları çıxarıram, təqdim edirəm. Bir-birindən istedadlı Kəlbəcər aşıqları var, onların toy problemi yoxdur. Məsələn, Şöhrət Kərimov, Elbrus Hüseynovu həmişə toylara çağırırlar. Aşıq toydan qazanmalıdır. Bu, yüz illərdir ki, belədir. Qurbani də, Abbas Tufarqanlı da, Ələsgər də, Şəmşir də belə olub. Aşıq elin içində olmalıdır və elin ruzisi ilə dolanmalıdır.

### "AŞIĞIN MEYXANA DEMƏSİ QƏBULOLUNMAZDIR"

Dəfələrlə demişəm: saz müqəddəs alətdir, aşıqlıq haqqın dərgahı ilə, ilahi aləmlə bağlıdır. Aşıq sənətini yüngül şouya çevirmək olmaz. Bu yaxınlarda bizim bir neçə aşığımızı televiziyada gördüm, meyxana deyirdilər. Bu, qəbulolunmazdır.

**- Niyə? Meyxananı aşıqlıqdan yüngül sənət sayırsınız? Aşıq niyə meyxana deyə bilməz?**

- Səbəb odur ki, bu iş yaxşıdırsa, meyxanaçılar da aşıq kimi oxusunlar. Yox, meyxanaçı aşığı dartıb meyxana dedirdirsə, özü aşıq mahnısı oxumursa, bu o deməkdir ki, özünü üstün tutur.

**- Meyxanaçı aşıq mahnısı oxusa, sizin münasibətiniz dəyişəcək?**

- Münasibətlər qarşılıqlı fayda götürməklə olmalıdır. Bu yoxdursa, aşığı aparıb meyxananın səviyyəsinə endirmək olmaz. Mən bunu qəbul etmirəm və aşıqlara da tövsiyəsayağı danlağımı çatdırdım ki, bir də belə hərəkət etməyin.

**- Məhərrəm müəllim, bazarlarda, çayxanalarda 2-3 manata oxuyan aşıqlar var...**

- Belə faktlardan xəbərdaram və əlbəttə, ürək ağrıdıcı məqamdır. Bir neçə dəfə mən özüm də rast gəlmişəm. Hətta onlar yaxınlaşıb məndən sifariş verməyimi istəyiblər, etiraz etmişəm. Aşıq elə olmalıdır ki, biz özümüz onu axtaraq. Elə olub, aşığın dalınca üç gün yol gedib təmtəraqla gətiriblər. Hər əlində saz gəzdirənə aşıq demək olmaz. Onlar aşıq yox, saz gəzdirənlərdir.

### "AŞIQ QALSTUK TAXMAMALIDIR"

**- Aşıqların bəlli geyim forması var. Bu forma həmişə belə olacaq, yoxsa dəyişiklik nəzərdə tutulub? Yaxud aşıqlar qalstukla oxuyurlar...**

- Əvvəlcə qalstukdan başlayım. Aşıq qəti şəkildə qalstuk taxmamalıdır. Çünki qalstuk boğaza, oxumağa mane olur. Mən aşıqları qalstukla görəndə deyirəm ki, qalstuku açmaq lazımdır. Yaxud saz sinəyə qaldıranda qalstuk gah o yana dartılır, gah bu yana. Təbriz aşıqlarının - Məhbub Xəlilinin, Çingiz Mehdipurun geyimləri var, o daha yaxşıdır. O nə bizim ənənəvi hərbi geyim kimidir, nə də bu biri cür. Bütün hallarda aşığın geyimi sıravi adamların geyimindən fərqlənməlidir. Bilinməlidir ki, burda oturan aşıqdır.

Geyimlə bağlı bir neçə variantda təkliflərimiz var. Mədəniyyət və turizm nazirimizin də istəyi budur ki, aşıqlarımıza yeni qiyafə hazırlansın və həmin geyimlər dövlət tərəfindən tikilib aşıqlara verilsin. Bu layihə üzərində iş gedir və inşallah, baş tutacaq. İndi çəkmə ilə məclisə çıxmaq olmaz. O keçmişdə idi ki, aşıq 8-10 saat ayaq üstə dururdu, çəkmə ayaqların şişməyinin qarşısını alırdı. İndi yarım saat oxuyan adama nə çəkmə? Keçmişdə ata rahat minmək üçün qalife şalvar lazım idi. İndi hamı at əvəzinə "Mercedes"ə minir, ona görə də torba kimi sallanan şalvara ehtiyac yoxdur.

**- Aşıq Sayat Nova üç dildə - Azərbaycan, erməni, gürcü dillərində yazıb-yaradıb. Bu il Azərbaycanda multikulturalizm ilidir. Sayat Novanın Azərbaycan dilində olan yaradıcılığını çap etmək mümkündür?**

- Bilmirəm, erməni məsələsi haradan Sayat Novanın üstünə yazılıb. Əslində, Sayat Nova yox, Səyat Nəvadır. Bizim köhnə aşıqlarımız istənilən vaxt rus, gürcü, erməni dilində şeirlər deyirdilər. Səyat Nəva da erməni və gürcü dilində şeirlər yazıb. Amma onun əsas yaradıcılığı Azərbaycan dilindədir və Səyat Nəva erməni yox, Azərbaycan sənətkarıdır. Tiflisdə doğulub, azərbaycanlıdır. Zaman içində əlimizdən getdi, ermənilər dünyaya təqdim elədilər ki, erməni aşığıdır. Onun erməni olması ilə bağlı heç bir fakt yoxdur. Mirəli Seyidovun böyük tədqiqatları var ki, o, Azərbaycan aşığıdır. Multikulturalizm ilinə gəlincə, deyim ki, erməni aşıqlarının 300-ə yaxını Azərbaycan dilində yazıb-yaradıb, çalıb-oxuyub.

**ELAN**

**Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyətinin Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən Quliyev İmamqulu Rüstəm oğluna 02.09.2005-ci il tarixdə verilmiş ÖM 245394 seriya və nömrəli mülkiyyət hüququna dair qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**